# Qarabağ öz tarixinin ən şərəfli dövrünü yaşayır

**Azərbaycanın ən qədim yurd yerlərindən olan tarix yaddaşlı Qarabağ bu gün yeni şərəfli, sevincli dövrünü yaşayır. Xalqımızın qələbə, zəfər qüruru ilə bu məkan yeni şövqlə, yeni eşqlə tikilib-qurulur. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa, Ağdam, Kəlbəcər və Laçında erməni faşizminin dağıtdığı, yaraladığı bütün tarixi, maddi-mənəvi abidələr yenidən canlandırılır. Bu gün Qarabağ xanlığının banisi Pənahəli xanın, xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar – İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın 30 il sızlayan, əzab çəkən ruhları sevinir. Prezident, Ali Baş Komandan İlham Əliyevin Qarabağa hər gəlişi bu şəxsiyyətlərin ruhuna bir dinclik gətirir, bu qədim yurd yerimizin Azərbaycana mənsubluğunu, "Qarabağ Azərbaycandır!" nidasının həqiqətə, reallığa əsaslandığını bir daha təsdiqləyir. Aylı-ulduzlu bayrağımızın bu diyarın dağlarında, çöllərində uzun bir zaman məsafəsindən sonra yenidən dalğalanması isə haqq-ədalətin heç vaxt, heç vədə itməyəcəyi, məğlub olmayacağı inamını daha da möhkəmləndirir.**





Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna növbəti səfərləri çərçivəsində Pənahəli Xanın Sarayında və İmarət Kompleksində görüləcək işlərlə tanış olmaları yaddaşımızı yenidən təzələdi, o dövr tariximizi bir daha bizə xatırlatdı. Pənahəli xanın Ağdamı tikib-qurmasını, onun təbiətən sarsılmaz qala kimi yaratdığı Şuşanın Azərbaycanın milli memarlığı, şəhərsalma mədəniyyəti ənənələri əsasında inşasına misilsiz töhfələr verməsini yada saldı.

Erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri olan Qarabağ xanlığının banisi Pənahəli xanın sarayında bu tarixi şəxsiyyətlə yanaşı, xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar – İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Qarabağın sonuncu hakimi Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub.

Dövlətimizin başçısı və birinci xanımın Xurşidbanu Natəvanın abidəsinin açılışında iştirak etmələri fonunda isə erməni faşizminin həmin türbələrlə, məzarlarla bağlı törətdiyi dəhşətləri bir daha gözlərim önünə gətirdim. Belə ki, Ağdam Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu zaman erməni barbarları tərəfindən şəhərin İmarət qəbiristanlığında Xurşidbanu Natəvanın məqbərəsinə qarşı vəhşilik əməlləri törədilib, onun dəfn edildiyi məzar tamamilə dağıdılıb, sümükləri qəbrindən çıxarılaraq aparılıb…

Bu məqamda onu da xatırladım ki, Qarabağ xanlığının əsasını qoyan Pənahəli xanın Ağdamdakı sarayı da vandalizmə məruz qalıb. Tövlə kimi istifadə edilən həmin sarayda inək və donuz saxlanılıb.

Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, artıq bu kompleksin bərpası işlərinə başlanılıb. Kompleksin ilkin konsepsiya layihəsi İtaliyanın "ArtCloud Network International s.c.r.l." şirkəti tərəfindən hazırlanıb.

* * *

Tarixi şəxsiyyətlərimizə qarşı törədilən vandallıq, yaşayış məntəqələrimizə, maddi-mədəni abidələrimizə düşmən münasibət, bir sözlə, insanlıqla bir araya sığmayan vəhşi əməllər təkcə bu şəhərlə bitmir. İşğalçı Qarabağ və ətraf rayonların demək olar ki, hər qarışını xarabalığa çevirib, təbii sərvətlərimizi talan edib.

İndi Qarabağ və Şərqi Zəngəzurun kənd və şəhərlərində düşmənin barbarlığı hər qarışda nəzərə çarpır. Bu gün azad edilən torpaqlara səfər edən hər bir əcnəbi qonaq da erməni vəhşiliyinin təzahürlərini öz gözləri ilə görür.

* * *

Qələbə ilə başa çatan Vətən müharibəsindən dərhal sonra dövlətimizin başçısı tərəfindən işğaldan azad olunan şəhər və rayonlarımızın bərpası qarşıya mühüm vəzifə kimi qoyuldu, "ağıllı şəhər" və "ağıllı kənd"lərin, qeyri-yaşayış komplekslərinin inşasına başlandı. Əhalinin dayanıqlı məskunlaşması, rahat yaşayışı məqsədilə həmin ərazilərdə nəqliyyat, sosial və biznes infrastrukturlarının yaradılması dövlət siyasətinin prioritetləri sırasında yer aldı.

İkinci Qarabağ savaşından ötən iki il ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dövlətimizin başçısının güclü siyasi iradəsi ilə genişmiqyaslı bərpa-quruculuq layihələri həyata keçirilib və bu, hazırda da davam etdirilir. Prezident İlham Əliyevin Ağdam rayonuna səfəri çərçivəsində yeni çəkilən Bərdə–Ağdam avtomobil yolunun tikintisi ilə, Pənahəli Xanın Sarayı və İmarət Kompleksində görüləcək işlərlə tanış olması, daha sonra rayonun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin, üç kəndin – Xıdırlı, Kəngərli və Sarıcalının kəndlərinin, şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin, City Hotel mehmanxanasının, keçmiş məcburi köçkünlər üçün inşa olunacaq 470 mənzildən ibarət yaşayış məhəlləsinin, şəhərin dəmir yolu və avtovağzal kompleksinin təməlqoyma mərasimlərində və Xurşidbanu Natəvanın abidəsinin açılışında iştirak etməsi də dövlət başçısının bu məsələni xüsusi diqqət və nəzarətində saxlamasının bariz ifadəsidir.

## Böyük Qayıdış proqramı uğurla həyata keçirilir

Prezident İlham Əliyev Ağdam səfərindən bir gün sonra – oktyabrın 5-də Azərbaycan Milli Şəhərsalma Forumundakı çıxışında belə bir beynəlxalq tədbirin bu şəhərin bir zamanlar yerləşdiyi məkanda keçirilməsinin təsadüfi olmadığını vurğulayıb. Dövlətimizin başçısı vaxtilə coşqun, firavan həyat yaşayan, genişmiqyaslı tikinti-quruculuq işləri ilə ərazisi getdikcə genişlənən bu qədim yaşayış məskəninin 30 illik işğal dövründə vandalizmin qurbanına çevrildiyini, yerlə yeksan edildiyini, bu vəhşiliyin bu yerə gələn hər kəsin ilk andan diqqətini çəkdiyini bildirib. Ölkə rəhbəri daha sonra deyib: "Ağdam Birinci Qarabağ müharibəsindən sonra, işğal illərində dağıdılıb. Bütün binalar sökülərək, daşları oğurlanaraq satılıb, viran qoyulub...".

Azərbaycan Prezidentinin çıxışında vurğulandığı kimi, indi Ağdamda təkcə yarıdağılmış yeganə tikili – Cümə məscidinin binası qalıb. Digər bütün yaşayış evləri, infrastruktur, müqəddəs məkanlar və məzarlıqlar isə yer üzündən silinib. Məscidin yarıdağılmış vəziyyətdə saxlanılmasının səbəbi isə bu tarixi tikilinin minarələrindən müşahidə aparmaq, Azərbaycan Ordusunun potensial hərəkətini görmək üçün istifadə etmək olub.

Dövlətimizin başçısı çıxışında Ağdam məscidinin təhqir olunmasına dair foto və video sübutların mövcudluğunu, işğalçının bu inanc yerində donuz və inək saxladığını, ümumiyyətlə, azad edilən ərazilərdə yerləşən ümumilikdə 67 məsciddən 65-nin barbarlığın qurbanına çevrildiyini xatırladıb.

Bu məqamda ölkə rəhbərinin çıxışında toxunduğu bir məsələ ilə bağlı onu da qeyd edək ki, İkinci Qarabağ müharibəsində əldə olunan tarixi zəfərdən sonra respublikamız Qarabağ və Şərqi Zəngəzurda erməni faşizminin xaraba qoyduğu yaşayış sahələrini sürətlə bərpa edir. Lakin Ermənistan sürətlə aparılan bərpa-quruculuq tədbirlərini, sülhyaratma təşəbbüslərini, necə deyərlər, özünə bağışlamır. Bu səbəbdən təxribatlarını davam etdirir, təcavüzkar siyasətinin tərkib hissəsi olan minalama "döyüşünü" həyata keçirir.

Bütün bu əməllər xalqımızı sülh yolundan döndərmir, düşməndən təmizlənən torpaqlarımızı gülüstana çevirməkdən çəkindirmir. Azərbaycan liderinin siyasi iradəsi, qətiyyəti ilə Qarabağ və Şərqi Zəngəzur bu gün sürətlə yenidən qurulur, respublikamızın hər hansı bölgəsində yaşayan keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarında ləyaqətlə məskunlaşması üçün müasir layihələr uğurla gerçəkləşdirilir. Ağalı kəndinin salınması, artıq bu müasir yaşayış məntəqəsində sakinlərin rahat yaşamaları qeyd edilən fikrin bariz nümunəsidir. Bu həm də Böyük Qayıdış proqramına uğurla başlanılması deməkdir.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**